


# Regionların inkişafı əhalinin rifahının yaxşılaşdırılmasına xidmət edir

***Azərbaycanda investisiyaların qeyri-neft sektoruna, xüsusən də regionların inkişafına yönəldilməsi, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması, işsizlik probleminin həlli, bütün bunların nəticəsində isə əhalinin həyat şəraitinin yaxşılaşdırılması məsələləri Prezident İlham Əliyevin yeritdiyi iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi diqqət çəkir. Bu baxımdan son 17 ildə aqrar sektorda islahatları sürətləndirmək, müasir müəssisələr, yeni iş yerləri yaratmaq istiqamətində reallaşdırılan sistemli tədbirləri xüsusi vurğulamaq olar.***

Xatırladaq ki, kənd təsərrüfatının subsidiyalaşdırılması və vergilərdən azad olunması, texnika və gübrələrin güzəştli şərtlərlə verilməsi, lizinq xidmətlərinin təşkili, investisiyaların və ixracın təşviqi, lisenziyalaşdırmanın təkmilləşdirilməsi, yoxlamaların dayandırılması müddətinin 2021-ci il yanvarın 1-dək uzadılması, yerli istehsalın stimullaşdırılması məqsədilə dövlət satınalmalarında yerli məhsulların dəyərinə 20 faiz güzəştin tətbiqi, habelə digər dövlət dəstəyi mexanizmləri ölkədə sahibkarlığın inkişafına mühüm təsir göstərib.

Prezident İlham Əliyevin iştirakı ilə iyunun 3-də Ağcabədi rayonunda dənli bitki toxumlarının emalı müəssisəsinin istifadəyə verilməsi də respublikada bu sahəyə göstərilən qayğının bariz ifadəsidir.

Qeyd edək ki, son illərdə ölkədə toxumçuluğun inkişaf etdirilməsi məqsədilə beş rayonda, o cümlədən Ağcabədi rayonunda dənli bitki toxumlarının emalı müəssisəsi qurulub. Müəssisə 1 hektar ərazidə salınıb və burada inzibati bina, taxıltəmizləmə bloku, taxıl üçün bunker və digər qurğular yaradılıb. Qalan ərazidə isə abadlıq və yaşıllaşdırma işləri görülüb.

Müəssisənin açılışında dövlətimizin başçısına məlumat verilib ki, zavodun emal gücü saatda 5 tondur. Quraşdırılan qurğular vasitəsilə emal olunan toxum materialını 98 faiz təmizləmək mümkündür. Bu toxumların əkin sərfiyyatı digər qurğularda təmizlənənlərdən 20-30 faiz azdır. Bu da əkinə sərf edilən toxumun həcminin azalmasına imkan verir, həm də fermerin məhsul istehsalında çəkdiyi xərcləri əsaslı şəkildə aşağı salır.

Müəssisədə quraşdırılan 3 min tonluq silo qurğularının əsas funksiyası təqdim olunan toxum materialını qəbul edərək emal xəttinə davamlı ötürülməsi və həmin qurğularda saxlanılan toxumun digər ərazilərə daşınması üçün avtomobillərə asanlıqla yüklənilməsini təmin etməkdir. Mövsüm başa çatdıqdan sonra dövlət ehtiyacı üçün tədarük olunan toxumun ehtiyatı bu qurğularda təhlükəsiz saxlanılacaq. Müəssisədə 25 nəfər işlə təmin olunacaq.

Buradan göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə qeyri-neft sektorunun inkişafı, ixracyönümlü məhsullar istehsal edən müəssisələrin yaradılması və ümumilikdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində çox mühüm layihələr icra olunur. Bu baxımdan, həyata keçirilən işlər arasında aqrar sənaye komplekslərinin yaradılması müstəsna əhəmiyyət kəsb edir. Aqrar sektorun inkişafında, regionlarda iqtisadi potensialın artırılmasında, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində yeni metod və üsulların tətbiqi, qabaqcıl texnologiyalara əsaslanan aqroparkların və iri fermer təsərrüfatlarının qurulması özündə mühüm amilləri və hədəfləri birləşdirir.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə iqtisadiyyatın inkişafı istiqamətində həyata keçirilən tədbirlər sırasında sənaye zonalarının mühüm önəm daşıdığını, belə layihələrin gerçəkləşdirilməsində xüsusi güzəştlərin tətbiqinin sahibkarlar tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb. Eyni zamanda, digər layihələr, o cümlədən kənd təsərrüfatının inkişafı ilə bağlı olan tədbirlərə də mühüm önəm verilməsinin əhəmiyyətini diqqətə çatdırıb. Dövlətimizin başçısı kənd təsərrüfatında məhsuldarlığın artımının gündəlikdə duran əsas məsələlərdən biri olduğunu bildirib.

Prezident İlham Əliyevin iyunun 3-də Ağcabədi rayonunun Hindarx qəsəbəsinin əkin sahəsində taxıl biçininə başlanması mərasimində iştirakı zamanı da bu barədə ətraflı danışılıb. Mərasimdə dövlətimizin başçısına cari il ölkə üzrə bir milyon hektar taxıl sahəsində biçin aparılacağı, onun təxminən 370 min hektarının arpa sahəsi olduğu vurğulanıb. Eyni zamanda, keçən il hektardan məhsuldarlığın 32 sentner təşkil etdiyi, bu il də yüksək göstərici uğurunda səy göstərildiyi diqqətə çatdırılıb.

Mərasimdə pambıqçılıqda da yüksək göstəricilər əldə ediləcəyinə əminlik ifadə olunub. Prezident İlham Əliyev deyib: “Biz pambığa olan marağı qaytardıq. Keçən il hektardan məhsuldarlığı 29 sentnerə qaldırmışıq. Bu da Azərbaycanın tarixində ən yüksək göstəricilərdən biridir. Sovet vaxtında hektardan məhsuldarlıq bəlkə cəmi 3-4 il təqribən 30 sentnerdən artıq olub. İndi biz demək olar ki, 30 sentnerə yaxınlaşmışıq. Bu il də məhsuldarlıq daha yaxşı olsa, onda əlbəttə ki, fermerlər və işləyənlər daha da böyük gəlir götürəcəklər”.

İnfrastruktur layihələrinin icrasının davam etdirilməsi də hazırda qarşıda duran mühüm vəzifələrdən biridir. Artıq elektrik, qaz təchizatı istiqamətlərində geniş miqyaslı tədbirlər reallaşdırılıb və bu, regionlardakı vəziyyəti ciddi surətdə dəyişib. Belə şərait həm əhalinin rifahının yaxşılaşmasına, həm də iqtisadiyyatın inkişafına çox müsbət təsir göstərib.

Yeri gəlmişkən, qeyd edək ki, regionların inkişafı ilə bağlı 2019-2023-cü illəri əhatə edən dördüncü dövlət proqramı çərçivəsində bölgələrdə kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsi, sosial infrastrukturun yaxşılaşdırılması, məşğulluğun təmin olunması istiqamətlərində ciddi addımlar atılır. Həmçinin, bölgələrdə yaradılan biznes mühiti, kənd təsərrüfatı və sənayenin inkişafı üçün infrastruktur da artıq öz bəhrəsini verir və işsizliyin aradan qaldırılmasında əsas rol oynayır.

Prezident İlham Əliyevin siyasətinə uyğun olaraq hazırda ölkəmizin regionlarında infrastrukturun inkişaf etmiş ölkələrdəki səviyyəyə çatdırılması diqqət mərkəzindədir. Bu baxımdan dövlətimizin başçısının müvafiq tapşırıqları əsasında respublikamızda kənd yollarının inşası və yenidən qurulması geniş vüsət alıb. Bütün bölgələrdə kənd yollarının tikintisi ilbəil daha da genişləndirilir. Bu, həm sosial, həm də iqtisadi layihələrdir. Həmin layihələrin icrası nəticəsində on minlərlə yeni iş yeri açılır. Təzə kənd yolları yerlərdə aqrar bölmənin əsaslı şəkildə inkişafına təkan verir, kənd təsərrüfatı məhsullarının bazarlara rahat və operativ şəkildə çatdırılmasına əlverişli şərait yaradır. Kənd yollarının inşasının genişləndirilməsi məqsədilə büdcə vəsaiti ilə yanaşı, Prezidentin Ehtiyat Fondundan da əlavə vəsait ayrılır.

Ölkə Prezidentinin Tərtər rayonuna səfəri çərçivəsində Buruc-Gülabatlı-Xoruzlu-Kəbirli-Bayandurlu-Qaradağlı avtomobil yolunun yenidənqurmadan sonra istifadəyə verilməsi də bunun bariz ifadəsidir.

Dövlətimizin başçısına adıçəkilən yolun texniki göstəriciləri barədə məlumat verilərək bildirilib ki, 6 min 800 nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən magistralın uzunluğu 21,5 kilometrdir. Dördüncü texniki dərəcəli yolun hərəkət hissəsinin eni 6 metr, hərəkət zolaqlarının sayı 2-dir. Yolboyu avtobus dayanacaqları, suötürücü borular, yol nişanları və göstərici lövhələr quraşdırılıb, cizgi xətləri çəkilib.

Prezident İlham Əliyevə Tərtərdə icra olunan digər yol layihələri barədə də ətraflı məlumat verilib. Dövlətimizin başçısının müvafiq tapşırıqlarına və sərəncamlarına uyğun olaraq bu gün rayonda avtomobil yollarının 81 faizinin tam asfalt-betonla örtüldüyü, qalan 17 kilometr kənd yollarının yenidən qurulmasının yaxın zamanlarda başa çatdırılacağı bildirilib.

Ümumiyyətlə, bu gün ölkəmizdə yol-nəqliyyat kompleksinin yenidən qurulması işi uğurla davam etdirilir. Belə ki, əgər əvvəllər ən müasir standartlara uyğun beynəlxalq və respublika əhəmiyyətli magistral yolların salınması diqqət mərkəzində idisə, indi yerli əhəmiyyətli yolların inşasına da xüsusi önəm verilir. Dövlətimizin başçısının tapşırıqlarına müvafiq olaraq ölkəmizin demək olar ki, bütün yaşayış məntəqələrində mövcud avtomobil yolları əsaslı təmir edilir və ya yenidən qurulur. Şəhər və rayon mərkəzlərini qəsəbə və kəndlərlə birləşdirən yollar, eləcə də qəsəbə və kəndlərin daxili yolları yenilənir. Cəbhəyanı yaşayış məntəqələrinin sosial problemlərinin həlli istiqamətində dövlətimizin başçısının tapşırıq və sərəncamları ilə həyata keçirilən müxtəlif infrastruktur layihələri içərisində yolların tikintisi və təmirinə xüsusi diqqət yetirilir. Məhz bunun nəticəsidir ki, təmas xəttində yerləşən yaşayış məntəqələrində gedən yolların əsaslı şəkildə yenidən qurulması davam etdirilir. Tərtər rayonunda da bu istiqamətdə genişmiqyaslı işlər görülür.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***